**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN VƏ YENİYETMƏLƏRİN TİBBİ VƏ SOSİAL PROBLEMLƏRİ SOSİAL İŞ KONTEKSTİNDƏ

İxtisas: 6310.01 – Sosial problemlər

Elm sahəsi: Sosiologiya

İddiaçı: **Nurlana Tofiq qızı İbadullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Fəlsəfə elmləri doktoru, professor
**Kazım Ağamirzə oğlu Əzimov**

Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Hörmət Qənbərəli qızı Cavadova**

Rəsmi opponentlər: Sosiologiya elmləri doktoru, dosent
**Səadət Davud qızı Məmmədova**

Sosiologiya üzrə fəlsəfə doktoru, dosent
**Bədəl Əsədulla oğlu Əhmədov**

Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Zeynəddin Müsənnif oğlu Şabanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti Sosial elmlər və psixologiya fakültəsinin nəzdində fəaliyyət göstərən BFD 4.25 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Sosiologiya elmləri doktoru, professor
**Hüseyn Tapdıq oğlu Qaraşov**

Dissertasiya şurasının elmi katibi: Sosiologiya üzrə fəlsəfə doktoru, dosent
**Yaqut Nadir qızı Əliyeva**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Əyyub Sevdim oğlu Kərimov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
(S.A.A.)
"28" 04 2025

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyada insanlar müxtəlif əsaslarla sosial qruplara bölünür. Belə bölgü cəmiyyətin idarə olunmasını daha asanlaşdırır, hər bir insanın ehtiyacları və hüquqlarının reallaşmasına köməklik edir. Həmin qruplardan ən həssas və yardıma daha böyük ehtiyac olanlardan biri fiziki və əqli imkanları məhdud uşaq və yeniyetmələrdir.

Bununla belə sağlamlıq imkanları məhdud insanların, xüsusən uşaqların bütün hüquqlarının təmin olunması üçün Konstitusiyada öz əksini tapan bir sıra müqəddəm şərtlər, o cümlədən hüquqi, təşkilati, texniki, maliyyə, sosial xarakterli şərtlər yerinə yetirilməlidir. Çünki onların bazası və təminat imkanları dərinləşdikcə digər əlaqəli amillərin də reallaşması daha asan və uğurlu olur. Məhz buna görə ilk növbədə hər bir vətəndaşın hüquq və azadlıqlarının təminolunma dərəcəsi nəzərdən keçirilməlidir.

Azərbaycan dövlətinin sosial siyasətinin strateji məqsədlərindən biri cəmiyyətdə müəyyən məhdudiyyətlər üzündən öz hüquqlarından tam istifadə edə bilməyən şəxslərin müalicəsi, təhsili, cəmiyyətə inteqrasiya olunması işində onlara dəstək olmaq bütün zəruri şəraitin yaradılmasıdır. Minlərlə fiziki və əqli imkanları məhdud uşaqlar və yeniyetmələr onlar üçün uyğun və zəruri şəraitin yaradılmasına ehtiyac duyurlar ki, bunun əsasında onlar keyfiyyətli ümumi və peşə təhsili alaraq öz imkanları daxilində bacarıq və qabiliyyətlərdən istifadə edərək, layiqli həyat sürə bilsinlər.

Şübhəsiz ki, fiziki və əqli imkanları məhdud uşaqlara xüsusi şərait yaradılmaqla təhsildə, məişətdə, xüsusi texniki ləvazimat və qurğularla təmin edilməsi sahəsində kömək göstərilməlidir ki, reabilitasiyadan sonra peşə bacarıq və qabiliyyətləri əldə etməklə cəmiyyətdə öz həyatını maksimal dərəcədə layiqli davam etdirə bilsinlər. Belə uşaqların tələbatlarını təmin etmək üçün ilk növbədə keyfiyyətli diaqnostika həyata keçirilməlidir. Düzgün təyin olunan diaqnoz uşaqların gələcək uğurlu həyata qədəm qoyması və sosial həyata inteqrasiya olunması üçün bir zəmindir.

Respublikamızda müxtəlif kateqoriyalar üzrə diqqətə ehtiyacı olan uşaqların tərbiyəsinin pedaqoji, psixoloji və sosial tərəfləri bir

sıra mütəxəssislər tərəfindən tədqiq edilmişdir. S.Ə.Qasımov xüsusi təhsil, əqli və fiziki inkişafında ləngimə olan uşaqların diaqnostikası və korreksiyası, N.T.Hüseynova loqopediya istiqamətində, E.M.Kərimova psixi cəhətdən ləng inkişaf edən uşaqlarla işin aparılması, D.Ə.Dostuzadə görməsində, həmçinin eşitməsində çətinliyi olan uşaqlarla işin təşkili, T.A.Ağayeva nitq inkişafı ilə əlaqədar, L.H.İmanova kəkələyən məktəbəqədər yaşlı uşaqlarda korreksiyaedici işin aparılması, M.Ə.Məmmədova əqli qüsuru olan məktəbəqədər yaşlı uşaqlarda zaman və məkan anlayışlarının inkişaf etdirilməsi sahəsində tədqiqatlar etmişlər. Bununla belə sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin şəxsiyyətinin inkişafı və tipik inkişaf etmiş həmyaşıdları ilə birgə sosial reabilitasiyasının həyata keçirilməsi istiqamətində elmi səviyyədə tədqiqatlar ləngiyir. Müasir dövrdə xüsusi diqqətə ehtiyacı olan uşaqların sosial reabilitasiyası, təlim-tərbiyə prosesində işlədilən metodlar haqqında elmi məqalələr və qeyri-hökümət təşkilatı tərəfindən kitablar ("inklüziv təhsil", "Xüsusi ehtiyaclı uşaqların inkişafına dair rəhbərlik", "Uşaq inkişafı metodikası" və s.) nəşr olunur[1].

Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin sosial reabilitasiyası məsələsi bir çox xarici ölkə alimləri tərəfindən öyrənilmişdir. Uşaqların və yeniyetmələrin qrupda şəxsiyyətinin formalaşması barədə A.V.Petrovski, K.K.Platonova, L.İ.Umanski, A.S.Çernişev, Y.L.Kolominski; sağlamlıq imkanları məhdud uşaqların psixofiziki inkişafı və təhsildə fərdi humanist yanaşma üzrə L.S.Viqotski, V.V.Lebedinski, M.A.Vlasova, M.V.Pevzner, Q.E.Suxarevoy, A.E.Liçko; inkişafetdirici mühitin əhəmiyyəti barədə L.İ.Umanski, E.A.Şahin, L.İ.Akatov, A.S.Çernişev və digərləri araşdırmalar etmişdir. L.İ.Umanski isə qrupun inkişaf dövrləri və mərhələləri, kollektivin yaranmasının sosial mexanizmlərini tədqiq etmişdir. O bildirirdi ki, qrupdan fərqli olaraq kollektivdə təşkilati, intellektual və iradi birlik, aktivlik mövcuddur. A.V.Petrovski qeyd

[1] İsgəndərova, S.N. Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiya, // 5805.01 Korreksiya pedaqogikası. - Bakı, - 2018.

edirdi ki, kollektiv birgə fəaliyyətə və ünsiyyətə görə yaranır və o şəxsiyyətin özünü dərk etmə prosesində əhəmiyyətli amildir [26].

Türk araşdırmaçılarından İ.H.Diken xüsusi ehtiyaclı uşaqların inklüziyası, S.Batu dəstək xidmətləri, H.Çulhaoğlu İmrak isə məktəbəqədər yaşda inklüziv təhsillə əlaqədar müəllim və valideyn münasibəti, sinifdə yaşıdları ilə əlaqələrin tədqiqini həyata keçirmişdir. D.Çağlar inklüziyanı tam sosial inteqrasiya kimi qiymətləndirmiş, bildirmişdir ki, inklüziya müxtəlif insan qruplarının fərqli mühitdə birgə mövcudluğu, təhsil alması, çalışması, istirahət etməsi, ümumilikdə, birgəlikdən məmnun olmasıdır. İnklüziyanın baş verməsi üçün o, dörd mərhələni qeyd etmişdir: fiziki, funksional, sosial və tam sosial inteqrasiya, yəni inklüziya[2].

Son əsrdə dünya elmində fiziki və əqli məhdudiyyətləri olan uşaq və yeniyetmələrin diaqnostikası, müalicəsi, təlimi və tərbiyəsi məsələsi alimlərin və praktik işçilərin diqqət mərkəzindədir. Tədqiqatçılar tərəfindən problemlə bağlı belə bir fikir vurğulanır ki, uşaqların fiziki və əqli məhdudiyyətlərinin xarakteri və dərinlik səviyyəsindən asılı olaraq onlar müəyyən inkişaf potensialına malikdirlər. Onların fəaliyyəti əsasən sosial yönümlü olmalıdır ki, daxili inkişaf qabiliyyətlərini aşkarlayıb, inkişaf etdirib, cəmiyyətdə özünə faydalı mövqe tuta bilsinlər.

Təhlildə uşaq hüquqlarına riayət olunması, sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin maddi-hüquqi təminatı, onların reabilitasiyası imkanları ilə bağlı hüquqi sənədlər iştirak etmişdir.

Bundan əlavə, mütəxəssislərin sosial müdafiə sistemində sosial işçilərin rolu, belə uşaqlarla işləmək üçün metodiki tövsiyələr, onların müəyyənləşdirilməsi ilə bağlı araşdırmaları nəzərdən keçirilir. Sağlamlıq imkanları məhdud uşaqların təhsil sahəsində hüquqlarının həyata keçirilməsinə, o cümlədən inklüziv təhsilin nəzərdən keçirilməsinə xüsusi diqqət yetirilir. Dayaq-hərəki sisteminin patologiyalarının aşkarlanması və qarşısının alınması üzrə mütəxəssislər də problemin təhlilinə öz töhfəlsini verdilər. Təhsili

---

[2] İsgəndərova, S.N. Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiya, // 5805.01 Korreksiya pedaqogikası. - Bakı, - 2018

çətin olan uşaqların sosiallaşması problemlərinə xüsusi diqqət yetirilir, əlavə olaraq, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasında onlarla iş təcrübəsi təhlil edilir. Mütəxəssislər bu kateqoriyadan olan uşaqlarla işləmək üçün kadrların peşəkar hazırlığı problemlərinə də toxunurlar. Psixoloqlar sağlamlıqlarını təmin etmək baxımından imkanları məhdud olan uşaqlarla işləyirlər. Ümumiyyətlə, psixoloqlar sağlamlıq imkanları məhdud uşaqların emosional-iradi sferasını təhlil etmək üçün müəyyən işlər görmüşlər. Dissertasiyada bu istiqamətdə aparılan işlərlə bağlı əsərlər tədqiqata cəlb olunmuşdur.

Bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində də nəzəri-praktik işlər həyata keçirilir. Pedaqoq və psixoloqlar tərəfindən bu istiqamətdə müəyyən işlər aparılır. Günümüzdə bütövlükdə bu sahədə görülən işlər fiziki və əqli imkanları məhdud insanların bugünkü tələbatlarına, imkanlarına uyğun gəlmir. Belə uşaqların müalicəsi, təlimi, tərbiyəsi, bütövlükdə sosiallaşması prosesi müasir texniki avadanlıqlardan istifadə edilməklə ən yeni innovativ texnologiyalar əsasında aparılmalıdır. Bu sahənin bir elmi-praktik problem olaraq öyrənilməsi bir sıra mövcud ziddiyyətlərin aradan qaldırılmasına gətirib çıxara bilər:

- fiziki və əqli imkanları məhdud uşaqların sayının artması və onların təhsili, peşə hazırlığı imkanlarının azlıq təşkil etməsi;

- mövcud hüquqi baza və yeni yaranmış həyati situasiyaları arasındakı ziddiyyət (bəzi hallarda fiziki və əqli imkanları məhdud uşaqların lazımi yardımın ala bilməməsi ilə nəticələnə bilər);

- fiziki və əqli imkanları məhdud uşaqlı ailələrin sayının artması və onların maddi təminatı, həyat səviyyəsi arasındakı ziddiyyət;

- fiziki və əqli imkanları məhdud uşaqlar üçün xüsusi hazırlıqlı pedaqoji kadrların olması zərurəti və həmin kadrların peşə hazırlığının aşağı olması, üstəlik ixtisasartırma proqramlarının olmaması;

- xüsusi hallar istisna olunmaqla fiziki və əqli imkanları məhdud uşaqların reinteqrasiyası, yəni öz ailələrinə qaytarılması arasında ziddiyyət (ailənin maddi durumu və ailədaxili ziddiyyətlərin mövcud olması baxımından);

- inklüziv təhsilə olan tələbat və orta ümumtəhsil məktəblərinin buna əslində hazır olmaması.

Yuxarıda qeyd olunan və digər, öz həllini gözləyən problemlər, aparılan tədqiqatın aktuallığını bir daha təsdiqləyir.

**Tədqiqatın obyekti.** Azərbacanda sağlamlıq imkanları məhdud olan uşaq və yeniyetmələrdir.

**Tədqiqatın predmeti.** Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin tibbi və sosial problemlərinin həlli yolları, onların sosial statuslarının bərpası, reabilitasiyası və cəmiyyətə adaptasiyasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin reabilitasiya işinin təşkili, onların valideynlərinin işə cəlb olunması və cəmiyyətə adaptasiyasında valideyn ilə yanaşı mütəxəssislərin qarşılıqlı rolunun müsbət təsirinin araşdırılmasıdır .

Tədqiqatın əsas vəzifələri qismində aşağıdakı vəzifələri qeyd etmək olar:

- Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin tibbi və sosial problemlərinin nəzəri-metodoloji əsaslarının təyin edilməsi, Azərbaycanda bu sahənin inkişaf tarixinin təhlil edilməsi və qiymətləndirilməsi;
- Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin həyat fəaliyyətinin normativ-hüquqi bazasının əsasının, təhsil imkanlarının (ümumi və peşə təhsil formaları üzrə) təhlili;
- Sağlamlıq imkanları məhdud uşaqlara və yeniyetmələrə göstərilən tibbi, psixoloji, pedaqoji, maddi və digər xidmət formalarının təyin edilməsi, xüsusi adaptiv mühitin formalaşdırılması xüsusiyyətlərinin aşkar edilməsi;
- Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrlə həm ailədə, həm də xüsusi təyinatlı müəssisələrdə aparılan təşkilati, pedaqoji, psixoloji işin monitorinqi və qiymətləndirilməsi;
- Qeyd edilən uşaq və yeniyetmələrin cəmiyyətə adaptasiyasının sosioloji tədqiqat vasitəsilə öyrənilməsi, mövcud vəziyyətin təhlili və cəmiyyətə inteqrasiya olunması yollarının araşdırılması;

Tədqiqatda istifadə etdiyimiz metodlar müşahidə, anket, test və sorğuya aid müxtəlif aprobasiyadan keçmiş metodikalar olmuşdur. Əldə edilən materiallar statistik faktlarla zənginləşdirilmişdir. Xüsusi olaraq valideynlərlə də sorğu keçirilmiş, onlardan müsahibə alınmışdır. Sorğular 2022-2023-cü illərdə keçirilmişdir.

**Müdafiəyə təqdim edilən əsas müddəalar**: Dissertasiya işində müdafiəyə təqdim olunan əsas müddəalar bunlardır:

-Azərbaycan sosial fikir tarixində fiziki və əqli imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiya prosesinin nəzəri təhlili daha dərindən aparılmalıdır.

-Fiziki və əqli imkanları məhdud olan uşaqlar və yeniyetmələrlə işin tətbiqi tərəflərinin həlli ilk növbədə ölkədə sosial xidmətin səviyəsi ilə bağlıdır.

-Uşaq və yeniyetmələrin psixi və fiziki inkişafina sosial mühitin təsiri ailədən başlanır.

-Uşaq və yeniyetmələrin sağlamlığında məhdudluğun qarşısının alınması ilə bağlı görülən profilaktik işlər və onların səmərəsinin artırılması əsasən elmi-texniki nailiyyətlərinin tətbiqindən asılıdır.

-Fiziki və əqli imkanları məhdud olan yeniyetmələrin kompleks şəkildə sosial adaptasiya tədbirlərinin həyata keçirilməsi pedaqoqların və mütəxəssislərin peşəkarlığından əsaslı dərəcədə asılıdır.

-Uşaq serebral iflici diaqnozundan əziyyət çəkən ailələrdə uşaq və yeniyetmələrin keçirdiyi psixi və psixoloji sarsıntılar onların sağlamlığında patoloji halların yaradılmasında başlıca təsir amilidir.

-Fiziki və əqli imkanları məhdud olan uşaqlar və yeniyetmələrlə gələcəkdə işləməsi nəzərdə tutulan kadrların (sosioloq, psixoloq və d.) vəzifəsinə qarşı mövqelərinin mənfi olması hələ ki öz həllini tapmamışdır.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakı müddəalardan ibarətdir:

- sağlamlıq imkanları məhdud uşaqlar tərəfindən yaşanan sosial problemlərin həllinə kompleks yanaşma tətbiq olunmuş, sağlamlığı məhdud olan uşaq və yeniyetmələrin cəmiyyətə inteqrasiya olunması problemləri tədqiq edilmiş, nəticələr çıxarılmış və tövsiyyələr irəli sürülmüşdür;

- sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrlə aparılan işin mərhələləri və hər bir mərhələnin özünəməxsusluğu araşdırılmış, bunun əsasında fərdi yanaşma metodu vasitəsilə diaqnozun qoyulması, korreksiya və sosial adaptasiya işi, nitq, bütövlükdə sağlamlıq, intellektual və d. inkişaf sahələri təhlil edilmişdir;

- Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin ailələri və özləri ilə aparılan korreksion və profilaktik işlərdən sonra reabilitasiya mərkəzlərində inteqrasiyası müsbət şəkildə özünü göstərmişdir;

- İnteqrasiya prosesini təşkil etmək üçün ali təhsil müəssisələri ilə könüllü təcrübə proqramları üzrə əməkdaşlıq edilərsə, müsbət nəticələr əldə edilə bilər. Kadrların sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrlə sosial və korreksion işin təşkili barədə təhsil aldığı müddətdə tanış olduqları üçün maraq və meyllərini daha sürətli təyin edib o istiqamət üzrə inkişaf edə bilərlər;

- Fiziki və əqli imkanları məhdud olan uşaq və yeniyetmələrlə gələcəkdə işlənilməsi nəzərdə tutulan kadrların həmin iş mühitlərinə uyğunlaşması, uşaq və yeniyetmələrə həmçinin onların himayədarları ilə sosial-psixoloji işin aparılması üçün şəraitin yaradılması əhəmiyyətlidir.

- Qeyd olunan elmi yeniliklərin tətbiqi və inkişafı üçün dövlət tərəfindən qurum/təşkilat/komitə və s. yaradılması, əsas funksiyaları həm himayədarların inkişafları ilə xidmətlərin əlçatanlığını təmin etmək, həmçinin mütəxəssislərin özünütəkmilləşdirilməsi ilə bağlı tədbirlərdə iştirakını, sosiumun həmin tədbirlərə daha rahat cəlb olumasını təmin edə bilərlər. Bu prosesin inkişaf etdirilməsi məqsədilə müxtəlif inteqrasiya şəraitinin təmin edilməsi gələcəkdəki işin təşkilinə müsbət təsir göstərəcəkdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin sosial problemlərinin elmi təhlili mərhələləri müəyyən olunmuş, təhlil olunan əsas məsələlər qeyd olunmuşdur. Daha sonra, yerli və xarici ədəbiyyatlarda bu qrup uşaqların sosial problemlərinin təhlilində əsas istiqamətlər və sahələr müəyyən olunmuşdur. Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin diaqnostikası,

müalicəsi, təlimi və təhsili, korreksiyası və sosial adaptasiyası probleminə müxtəlif yanaşmalar aşkar edilərək təhlil edilmiş və onlara münasibət bildirilmişdir.

Dissertasiyada sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin tibbi və sosial problemlərinin kompleks şəkildə öyrənilməsi və həlli zərurəti əsaslandırılmışdır. Tədqiqat işi respublikada bu qrupa daxil olan uşaqların sosial problemlərinin aşkar edilməsinin nəzəri-tətbiqi sahəsinə bir töhfə olacaqdır.

Əldə edilən materiallar əsasında xüsusi məktəb və internatlarda, eləcə də orta məktəb və ailə şəraitində sağlamlıgında məhdudiyyətlər olan uşaqlarla işləyən pedaqoji kollektiv üçün ixtisasartırma proqramı hazırlamaq mümkündür. Bundan başqa, əldə edilən materiallar sosial işçilər, praktik psixoloqlar və pedaqoqlar üçün təcrübə artırmaq baxımından faydalı ola bilər. Həmçinin, ali məktəblərdə "Sosial iş" ixtisası üzrə təhsil alan tələbələrə oxunan bir sıra xüsusi kurslar üçün tədris materialı kimi istifadə oluna bilər. Ümumiyyətlə:

1. Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin erkən diaqnostikası müasir tibbi, psixoloji, pedaqoji elmlərin son nailiyyətləri əsasında həyata keçirilməlidir.

2. Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin təhsilində fərdi yanaşma ilə yanaşı, həm də, inklüziv təhsilin imkanlarından istifadə olunmalıdır.

3. Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələr əsasən az təminatlı, həyat səviyyəsi aşağı olan ailələri əhatə etdiyi üçün dövlət tərəfindən həyata keçirilən sosial siyasətin vacib istiqamətlərindən biri də əhalinin bu təbəqəsinə sosial yardımın artırılması, yeni iş yerlərinin açılması, regionların inkişafı, irsi və sosial xəstəliklərlə mübarizənin gücləndirilməsinin təşkilidir.

4. Sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrlə işləyən peşəkar kadrlar kollektivi daim öz üzərində çalışmalı, ixtisaslarını vaxtlı-vaxtında artırmalı, beynəlxalq təcrübədən faydalanmalıdırlar.

Əldə edilən nəticələrin ümumi təsəvvürü müəllif tərəfindən formulə edilmiş konseptual əsasında qurulur, irəli sürülən məqsəd və vəzifələrə tam uyğun gəlir.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işi giriş, üç fəsil səkkiz yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir. Tədqiqatın əsas müddəaları məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici nəşrlərdə, həmçinin yerli və beynəlxalq elmi konfransların materiallarında dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi müəssisənin adı**. Dissertasiya işi Bakı Dövlət Universiteti, Sosiologiya kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın ümumi həcmi - 181635 işarə boşluqlarsız, 207141 işarə boşluqlarla, Giriş - s.4-14, 18950 (21485); I Fəsil – s.15-45, 52227 (59670); II Fəsil - s.46-87, 65860 (75037); III Fəsil - s.88-110, 32526 (37232); Nəticə - s.110-117, 12072 (13717); Əlavə - s.131-144, 18125 (19514).

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yeniliyi, nəzəri-metodoloji əsasları və empirik bazası, elmi-nəzəri və praktiki əhəmiyyəti öyrənilmişdir.

**"Fiziki və əqli imkanları məhdud uşaq və yeniyuetmələrlə iş sosial problem kimi"** adlanan birinci fəsil iki paraqrafdan ibarətdir və nəzəri xarakter daşıyır. Müəllif problemin sosioloji öyrənilməsinin nəzəri-metodoloji aspektlərini araşdırır. Bu bölmədə iddiaçı fiziki və əqli imkanları məhdud olan uşaq və yeniyetmələrlə işin tətbiqi tərəflərinin mahiyyətini, məzmununu və spesifik  xüsusiyyətlərini aydınlaşdırır, sağlamlıq imkanları məhdud olan uşaq və yeniyetmələr dair elmi ədəbiyyatdakı əsas yanaşmaları ətraflı nəzərdən keçirir

**"Sosioloji fikir tarixində fiziki və əqli imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiya yollarının nəzəri-metodoloji təhlili"** adlanan birinci paraqrafda müəllif bu müddəadan çıxış edir: Hər bir elm öz tədqiqat obyektinə malik olur, həmçinin, özünün tədqiqat obyektini seçməklə obyektin ayrı-ayrı tərəflərini, hədlərini tədqiq edən

bir çox elmlər üçün bir tədqiqat obyekti mövcud ola bilər. Tədqiqat obyekti bizi əhatə edən dünyanın, o cümlədən sosial aləmin bizim şüurumuzdan asılı olmayaraq mövcud olan müəyyən hissəsi hesab edə bilərik. Tədqiqatın predmetinə nəzər yetirsək, obyekti öyrənməyin hüdudlarını, onun tədqiqi predmet sahəsini müəyyən edə bilir. Predmet obyektiv reallığın təsvirinə kömək edən kateqoriya və anlayışların məcmusu kimi çıxış edə bilər. Tədqiqat predmetinin müəyyən edilməsinə, tədqiqat üçün obyektin müəyyən xassələrinin seçilməsinə və onun digər xassələrindən ayrımasına təkan verir[3].

Cəmiyyət – sosial ehtiyacların ödənilməsini təmin etmək üçün qarşılıqlı münasibətdən olan, ortaq bir məkan və mədəniyyətə məxsus bir çox insanların təşkil etdiyi birlikdir. Cəmiyyətin bir sıra cəhətləri var:

-Ümumi bir ərazidə yaşayan və fəaliyyət göstərən insanların yaratdığı demoqrafik quruluşu əmələ gətirən göstəricidir;

-Fərqli funksiyalara – iqtisadi, siyasi, dini, ailə, təhsil və səhiyyə səviyyəsinə uyğun olaraq bir neçə əsas qruplardan yaranır;

-Ortaq dil, oxşar davranış və mədəniyyəti olan qruplardan əmələ gəlir.

Cəmiyyət sosial sistemləri tam şəkildə əks etdirdiyinə görə, mürəkkəb, eləcə də ümumi sosial sistem kimi qəbul olunur.

**“Fiziki və əqli imkanları məhdud olan uşaq və yeniyetmələrlə işin tətbiqi tərəflərinin təhlili xüsusiyyətləri”** adlanan ikinci paraqrafda göstərilir ki, Əlilliyi olan şəxslərlə bağlı qanunvericilik aktlarına nəzər yetirsək ki, eyni diaqnozdan əziyyət çəkən uşaq və yeniyetmələrin əlilliyi müxtəlif dərəcələrdə olan valideynləri ilə sosial işçilərin və mütəxəssislərin işin təşkili həmin fərqlənən dərəcələrə uyğun olaraq qurulur. Valideynlərin uşaq və yeniyetmələrin diaqnozlarına uyğun adaptiv davranışları, həmçinin psixoloji dözümlülük səviyyəsi, sosium təzyiqinə əsasən emosional tükənmənin işlənilməsi öhdəlikləri yerinə yetirilməlidir. Valideynlərlə işin təşkili nə qədər uğurlu qurularsa, qarşıya

---

[3] Qolenkova Z.T., Ümumi sosiologiya: Ali Təhsil tələbələri üçün dərs vəsaiti. Bakı: 2014

qoyulmuş məqsədlərə vaxtında nail olunursa, uşaq və yeniyetmənin inkişafında müsbət dəyişiklik özünü göstərəcək və ümumi cəmiyyətin həmin uşaqlarla münasibətinə yaxşı mənada öz təsirini göstərəcək. Ümumən bütün sosial-psixoloji nəzəriyyələrə diqqət yetirsək, sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin inkişafı üçün əsas nəzərdə tutulan valideynlərin onlara münasibəti, ailədə yaradılan şərait, siblinqlər arası münasibətin inkişafıdır.

Qanunvericiliyə və dünya təcrübəsinə əsasən, zəruri prosedur olaraq 18 yaşdan sonra həmin uşaqlara müvafiq əlillik dərəcəsi müəyyənləşdirilməlidir[4].

Cəmiyyətin bütün inkişaf mərhələlərində nəsillərarası varisliyin təmin olunması məqsədilə gənc nəslin sosial-demoqrafik və fiziki inkişafına, keyfiyyətlərinə xüsusi önəm verilir. Uşaq və yeniyetmələrin həyat fəaliyyəti, şəxsiyyət kimi yetişməsi, layiqli insan və vətəndaş olmasına təsir edən amillər olduqca əhatəli və ziddiyyətlidir. Bu amillər sırasında informasiya-kommunikasiya texnologiyalarının rolu müstəsnadır. Xüsusilə, uşaqların və yeniyetmələrin sosiallaşmasında əhəmiyyətli rol oynayan təlim və tərbiyədə İKT aparıcı rol oynayır. Məlumdur ki, "əhalinin sağlamlığına və həyat şəraitinin təhlükəsizliyinə bir çox amillər, o cümlədən ölkədə olan ekoloji vəziyyət, qida məhsullarının keyfiyyəti, məişət şəraiti bilavasitə təsir edir"[5]. Buna görə də işin bu tərəfinin təhlili, dərindən öyrənilməsi cəmiyyətin bu yaş qrupunun gələcək inkişaf perspektivlərini daha aydın edə bilər. Ailələrin də müasir keyfiyyət göstəriciləri göstərir ki, uşaq və yeniyetmələrin tərbiyəsi zamanı bir çox problemlər ortaya çıxır. İldən-ilə boşanmaların, müxtəlif səbəblərdən problemli ailələrin sayının artması qeyd olunan yaş kateqoriyasının növbəti yaş mərhələsinə normal keçidini xeyli çətinləşdirir. Bundan başqa, sosial mühitin də təsirini unutmaq olmaz[6].

---

[4] Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: 2018

[5] Səhiyyə, sosial təminat, idman // http://www.stat.gov.az/source/healthcare/

[6] Gürzəliyev S.A., Məmmədova Z.B., Balayeva Ş.M., İsmayılova Z.Q., Məktəblilər arasında dayaq-hərəkət aparatının patalogiyası və onun profilaktikası yolları // ATU, prof. Felin 100 illik yub. Həsr olunmuş konf. mat-rı. Bakı: 2006, səh. 52-57

Məhdud fiziki imkanları və psixi çatışmazlıqları olan uşaqları tərbiyə edən ailələrə sosial yardımın təşkili formalarından biri valideynlərin köməyi ilə sosial reabilitasiya üzrə proqramların reallaşdırması olmuşdur, burada uşaqlarda ayrı-ayrı bacarıqları və daxili emosional-iradəli dünya inkişaf etdirir və formalaşdırırlar[7].

Sosial işçilər valideynlərə ailənin mürəkkəb məsələlərini araşdırıb təhlil etməyə kömək edə bilərlər. Kliniki sosial işçilər tərəfindən fərdi, ailə və qrup konsultasiyaları verilir, bunlar da, öz növbəsində valideynlərə və yeniyetmələrə ünsiyyəti və qarşılıqlı münasibətləri yaxşılaşdırmağa, münaqişələri həll etməyə və psixi və fiziki sağlamlıq [8] sahəsində əhəmiyyətli məsələləri həll etməyə kömək edə bilərlər. ABŞ-da fiziki və psixi fəsadları olan uşaqlara sosial yardımın müxtəlif növünün göstərilməsi üzrə çoxsaylı mərkəzlər fəaliyyət göstərir (məsələn, mürəkkəb təlim və davranış ehtiyacları olan, həmçinin autizmdən əzab çəkən uşaq və gənclər üçün məktəb və proqramlar Mərkəzi və s.)[9].

Tədqiqatçılar vurğulayırlar ki, uşağın fiziki və emosional vəziyyəti, həmçinin onlar sosial və koqnitiv inkişafı bir çox şeydə onların ailəsinin inkişaf dinamikasından asılıdır. Uşaqlarda xəstələnmənin və davranış problemlərinin artması onu təsdiqləyə bilər ki, bəzi ailələr onların keçirdiyi stress yüklənmələrinin öhdəsindən gəlməyə çalışır, amma həmişə bu alınmır[10].

İkinci fəsil **"Azərbaycan cəmiyyətində fiziki və əqli imkanları məhdud olan uşaq və yeniyetmələrin sosial və tibbi problemlərinin həlli yollarının təsviri"** adlanır. Bu fəsildə uşaq və

---

[7] Nəcəfova Z.S., Əlilliyi olan uşaqların reabilitasiyası prosesində günərzi qayğı xidmətinin rolu // "Azərbaycan sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah" mövzusunda Beynəlxalq Elmi-praktiki konfransın materialları, Bakı: 2019, s. 99-101

[8] Children with special educational needs // https://www.nidirect.gov.uk/articles

[9] Sağlamlıq imkanları məhdud uşaqlar müasir reabilitasiya sistemi ilə əhatə olunublar // https://www.sosial.gov.az/post_409447

[10] Children with special educational needs // https://www.nidirect.gov.uk/articles

yeniyetmələrin fiziki inkişafına sosial mühitin təsiri araşdırılır, insan sağlamlığına təsir edən sosial amillər nəzərdən keçirilir.

**"Uşaq və yeniyetmələrin fiziki inkişafına sosial mühitin təsiri xüsusiyyətləri"** adlanan birinci paraqrafda sosial mühitin insanların, o cümlədən uşaq və yeniyetmələrin fiziki inkişafına təsiri araşdırılır. Qeyd edilir ki, müasir dövrdə insanın sağlamlığına, səhhətinə elmi-texniki tərəqqi ilə şərtlənmiş xeyli sayda amillər təsir edir. Bu nüvə və kimya sənayelərinin inkişafı ilə bağlı zərərli agentlər, istehsal tullantıları, həyat sürətinin artması, zehni fəaliyyət və s. kimi amillərdir. Bu təsir xəstəliklərin və ölüm faizinin strukturunu kökündən dəyişdirmişdir. Əgər XX əsrin başlanğıcında insanlar arasında yoluxucu xəstəliklər aparıcı xarakterə malik idilərsə, hal-hazırda ürək-damar, onkoloji, ruhi-əsəb xəstəlikləri və travmalar önə çıxmışdır.

**Sosial amillər və onların məzmunu**. Uşaq və yeniyetmələrin sağlamlığına təsir edən sosial amilləri nəzərdən keçirək :

1.Ailə və məişət;

2.Təhsil ocaqları və sosial mühit;

3.Qlobal xarakterli sosial amillər: İKT, şəhər mühiti, düşüncə tərzi, ünsiyyət formaları.

Ailə hərtərəfli birlik olaraq sosiaologiya elminin bütün sahələrində tədqiq edilir. Ailə sosial birliyin, strukturun, institutun və kiçik qrupun xarakteristikasını əks etdirir. Ailənin sosiologiyası sosiallaşmanın, təhsilin, siyasətin, əməyin, mədəniyyətin, hüququn və digər sahələrin dairəsini əhatə edir. Onun predmeti sosial nəzarət və sosial nizamsızlıq, sosial mobillik, miqrasiya və demoqrafik dəyişikliklər kimi prosesləri daha aydın anlamağa şərait yaradır[11].

Sosioloq A.Q.Xarçev ailə məfhumunu belə ifadə etmişdir: ailə həyat yoldaşları, valideynlər və övladlar arasında üzvləri nikah və qohumluq münasibətləri, ümumi məişət və qarşılıqlı məsuliyyətlə

---

[11] Vahidov F., Ağayev T., Sosiologiya: Ali məktəblər üçün dərslik, Bakı: 2019, 323-347 s.

birləşmiş müəyyən əlaqələr sistemi, sosial əhəmiyyəti, əhalinin fiziki və mənəvi artımına cəmiyyətin tələbi ilə şərtlənən kiçik qrupdur[12].

**Təhsil ocaqları və sosial mühit** sosial amil olaraq uşaqların və yeniyetmələrin sağlamlığına necə təsir göstərir?

Təhsilin sosial institut kimi formalaşması sosial stratifikasiya, əmək bölgüsü, ictimai proses kimi təhsil və tərbiyə nəzəriyyələri ilə qarşılıqlı əlaqədə baş vermişdir. Bu proses 20-ci əsrin 20-ci illərində təzahür etmişdir [13]. Təhsilin sosiologiyasının əhatə dairəsi geniş olub, aşağıda qeyd olunan məsələləri əhatə edir:

- Müasir təhsil sistemlərinin formalaşması və təkmilləşməsi;
- Elmi-texniki inqilab və qloballaşma mərhələsində təhsilə qoyulan texniki və sosial tələblər;
- Təhsildəki sosial bərabərlik və bərabərsizlik məsələsi;
- Təhsil qurumu sosial problem kimi;
- Təhsil müəssisəsinin siyasi birliklər, cəmiyyətin sosial qurumları ilə, milli münasibətlərlə, insanların mənəvi aləmi ilə qarşılıqlı təsir və əlaqəsi;
- Fərdin sosiallaşması və formalaşmasında təhsilin və onun alt sistemlərinin əhəmiyyəti .

Sosial mühit dedikdə uşaqların və yeniyetmələrin yaşadıqları ərazi, şəhər, kənd, küçə və yaxud məhlləsində olan sosial vəziyyət nəzərdə tutulur. Bu ərazilərdə ünsiyyət imkanları müxtəlif ola bilər. Bununla yanaşı, uşaqların sağlamlığına müxtəlis sosial amillər - ətrafdakıların davranışı, zərərli vərdişləri, əməlləri də təsir göstərir. Sağlam həyat tərzi uşaqların da sağlam böyüməsi üçün zəmin yaradır. Ən əsası isə - əmək tərbiyəsidir. Əmək tərbiyəsi vasitəsilə sağlam həyat sürmək imkanını əldə etmək olur.

Nəhayət, üçüncü bloka qlobal xarakterli sosial amillər daxildir: **İKT, şəhər mühiti, düşüncə tərzi, ünsiyyət formaları.** İKT dedikdə ilk növbədə İnternet imkanlarını nəzərdə tutulur. Sosial şəbəkələr, mobil rabitə kimi əlaqə vasitələri insan həyatını əsaslı

---

[12] Vahidov F., Ağayev T., Sosiologiya: Ali məktəblər üçün dərslik, Bakı: 2019, 323-347 s.

[13] BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyası. https://www.udpo.az

şəkildə dəyişdirir. Uşaqların erkən yaşlarından mobil telefonlardan, kompüterdən istifadə etməsi onların sağlamlığına ciddi şəkildə təsir göstərir, psixoloji asılılıqla yanaşı, bədxassəli şişlərin, müxtəlif törəmələrin əmələ gəlməsinə səbəb olur. Telefon şüaları uşaqların sinir və endokrin sisteminə mənfi təsir göstərir, beyin hüceyrələrinin normal inkişafına mane olur. Belə hesab edilir ki, uşaq bədəni həmin şüalanmanı böyüklərdən 2-4 dəfə artıq dərəcədə qavrayır. İnternet-asılılığın bir xəstəlik olaraq qəbul edilməsi heç kəs üçün sirr deyil. Çoxsaylı tədqiqatlar, o cümlədən Makmaster Universiteti tərəfindən aparılan araşdırması göstərir ki, internet asılılığı insanda depressiya, narahatlıq və impulsivlik yaradır, həmçinin, diqqəti dəyayındırır[14]. Bu xəstəlik xüsusilə, azyaşlı İnternet istifadıçilərinə aiddir. Psixoloqlar bu sahədə araşdırmaları genişləndirərək, problemin həlli üçün metodikalar hazırlayırlar. Amma aydındır ki, burada məktəb müəllimləri, valideynlər və bir çox sahələrin mütəxəssisləri də öz səylərini birləşdirməlidirlər.

İkinci paraqraf **"Uşaq sağlamlığında məhdudluğun qarşısının alınması ilə bağlı görülən profilaktik işlər"** adlanır. Bu fəsildə cəmiyyətdə gedən proseslərin təhlili göstərir ki, insanların sağlamlığında getdikcə bir çox problemlərin yaranması və həmin problemlərin təsiri nəticəsində vəziyyətin getdikcə ağırlaşdığı qeyd edilir. Xüsusi olaraq burada uşaq və yeniyetmələrin sağlamlığı vurğulanır. Statistika göstərir ki, əlilliyə gətirib çıxaran bəzi xəstəliklər var ki, dövlət üçün böyük bir sosial problemə çevrilir. Qeyd etməliyik ki, sosial qayğıya ehtiyacı olan bu qrup insanlar, əksinə, bir növ kənarlaşdırılır və sosial həyatdan təcrid olunurlar. Bu, ilk növbədə bəzi valideynlərə aiddir. Bəzən sağlamlığında problemləri olan uşaqlar ailədən uzaqlaşdırılır, müxtəlif bəhanələrlə dövlətin himayəsinə verilir. Bundan başqa, müəyyən səbəblər üzündən valideynlərini itirən və yaxud valideynlik hüququndan məhrum edilənlərin uşaqlarını da dövlət öz himayəsinə götürür. Azərbaycanda bu sahədə lazımi işlər aparılır. Xüsusi müəssisələr

[14] Вред от мобильного телефона для детей // http://nashi-de-ti.ru

vardır ki, burada uşaqlar və yeniyetmələr böyüyür, təhsil alır və gələcək həyata hazırlaşdırılır. Bu sahədə olan problemlərin, o cümlədən, uşaqların yeniyetməlik dövrünün təhlili və həlli yollarının aydınlaşdırılması olduqca vacibdir[15].

Əlilliyin qarşısını almaq bir çox hallarda mümkün olmur. Bu səbəbdən cəmiyyətdəki resurslardan əlilliyi olan insanların istifadə edə bilməsi üçün müvafiq şərait yaradılmalıdır. Əgər əlilliyi olan şəxs ictimai nəqliyyatdan istifadə edə bilmirsə, nəqliyyat vasitələri yenidən təchiz edilməli, binaların, keçidlərin qarşısına panduslar qoyulmalı, onların məşğulluq, təhsil, peşə bacarıqlarının təkmilləşdirilməsi üçün müvafiq layihə və proqramlar icra olunmalı, qanunvericilik təkmilləşdirilməlidir. Bütün bunların uğurlu şəkildə həyata keçirilməsi üçün isə cəmiyyətdə əlilliyi olan şəxslərin sayı, onların əlillik səbəbləri, başlıca ehtiyacları müəyyən edilməlidir[16].

Bundan başqa, ölkənin, bölgənin tarixi inkişaf yolunu və hal-hazırda yaşadığı mərhələni də nəzərə almaq lazımdır. Sivilizasiyanın ən erkən mərhələsindən başlayaraq bu günə kimi gedən inkişaf insanların həyat tərzinə, düşüncəsinə və dünyaya münasibətinə təsir göstərmişdir. Üstəlik əldə edilən maddi və mənəvi sərvətlərin dəyərləndirilməsi barədə təsəvvürlər vardır ki, bunlar da sosial həyat formalarına öz təsirini göstərir, sosial institutların fəaliyyətini, onların varisliyini təmin edir. Ən qədim və əhəmiyyətli, mənəvi dəyəri yüksək olan sosial institutlara misal olaraq elə ailəni, dini və əxlaqı göstərmək olar[17].

II fəslin "**Fiziki və əqli imkanları məhdud olan uşaq və yeniyetmələrlə korreksion işin təşkili"** adlanan üçüncü paraqrafında göstərilir ki, korreksiya pedaqoji sahədə psixofiziki

---

[15] Əlil və sağlamlıq imkanları məhdud olan uşaqların aşkarlanması üzrə metodik vəsait. Tərtibatçılar: C.Məmmədov, t.f.d., Ş.İsmayılova, İ.Əlizadə, L.Orucova, S.Qaziyeva, X.Eyvazova, F.Abdullazadə. Bakı: 2013, 36 s.
[16] "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il Fərmanı. Bakı şəhəri, № 800, 39 s.
[17] Егорова, Т.В. Социальная интеграция детей с ограниченнымивозможностями / Т.В. Егорова – Балашов: Николаев, 2002. – 80 с.

inkişaf çatışmazlıqlarını aradan qaldırmaq və zəiflətmək üçün tətbiq edilən pedaqoji tədbir sistemidir və hər bir uşağın yaşına, diaqnozunun tipinə, ağırlıq dərəcəsinə və yaranma tarixinə görə fərdi xüsusiyyəti ilə seçilir[18].

Qeyd edilən paraqrafda uşaq və yeniyetmələrin inkişafında mühüm əhəmiyyət kəsb edən faktorlar nəzərdən keçirilir. V.İ.Lubovski tərəfindən inkişaf pozulmalarının ümumi xarakteristikası belə qruplaşdırılır:

- İnformasiya qəbulunun, saxlanmasının, yenidən işlənməsinin və istifadəsinin pozulması;
- Nitq əlaqələrinin pozulması;
- Ətraf aləmin daha uzun zamanda formalaşması;
- Sosial-psixoloji dezadaptasiya riskinin artması.

Dayaq-hərəkət aparatında problem olan şəxslərin klinik əlamətləri, iradi hərəkət çətinliyi və nöqsanları, bu kateqoriya uşaqların iki qrupa bölünməsinə səbəb olur[19].

Dayaq-hərəkət aparatında pozulmaları olan şəxslərin korreksion pedaqoji işi yaş mərhələlərinə görə təsnifləşdirilir

Dördüncü paraqraf **"Uşaq serebral iflici diaqnozundan əziyyət çəkən uşaq və yeniyetmələrin sosial problemləri"** adlanır. Bu paraqrafda serebral iflici nədir, bu diaqnozdan əziyyət çəkən uşaqların inkişaf xüsusiyyətləri araşdırılır. Serebral iflicli uşaqların sensor tərbiyəsi üçün əsas məsələlər aşağıdakı kimi formalaşdırılır[20]

1. Görmə ilə bağlı bütün növ təsəvvürün inkişaf etdirilməsi (görmə, rəng, forma, ölçü, məkan və əzələ-oynaq təsəvvürləri);
2. Eşitmə ilə bağlı təsəvvürün inkişaf etdirilməsi və eşitmə çətinliyinin aradan qaldırılması;
3. Taktil-hərəki təsəvvürünün inkişaf etdirilməsi;

---

[18] Hüseynova N.T., Aslanova S.R., Xüsusi Psixologiya : Dərslik: 2 cilddə I c., Bakı: 2018

[19] Hüseynova N.T., Aslanova S.R., Xüsusi Psixologiya : Dərslik: 2 cilddə II c., Bakı: 2018

[20] Hüseynova N.T., Aslanova S.R., Xüsusi Psixologiya : Dərslik: 2 cilddə II c., Bakı: 2018

4. Dadbilmənin formalaşdırılması.

Həmçinin, oliqofreniyanın müxtəlif dərəcələri və görmə və eşitmə pozulmaları da müəyyən edilir. Bu uşaqlarla işləyərkən aşağıdakı tövsiyələr nəzərə alınmalıdır:

1. Görmə və rəng təsəvvürünün inkişafı,
2. Eşitmə və dadbilmə pozulmalarının düzəldilməsi,
3. Taktil-hərəki təsəvvürünün inkişafı.

Buna əlavə, intellektual problemləri olan USİ-li şəxslər üçün "Sensor stimulyasiya" proqramları təklif olunmalıdır. Bütün bu məsələlərin həll edilməsi üçün təlim şəraiti mümkün qədər səmərəli olmalı, bu şəxslər üçün oyun və vəsait seçilərkən psixoloji əlamətlər də nəzərə alınmalıdır. Passiv uşaqlar üçün böyük və səsli oyuncaqlar, həssas və emosional uşaqlar üçün isə sakitləşdirici və hərəkəti artırmayan yumşaq və az səsli oyuncaqlar təqdim edilməlidir[21].

**“Fiziki və əqli imkanları məhdud uşaq və yeniyetmələrlə işin təşkili və sosioloji tədqiqat vasitəsi ilə öyrənilməsi”** adlanan üçüncü, sonuncu fəsildə başlıca diqqət iki məsələ üzərində cəmləşdirilir: a) uşaq serebral iflici diaqnozundan əziyyət çəkən uşaq və yeniyetmələrin keçirdiyi psixi və psixoloji sarsıntılar onların sağlamlığına təsir amili kimi; b) fiziki və əqli imkanları məhdud uşaq və yeniyetmələrlə işin təşkilinin sosial problemlərinin araşdırılması, nəticələrin diaqramlarla təsviri.

Bu fəslin **“Uşaq serebral iflici diaqnozundan əziyyət çəkən uşaq və yeniyetmələrin valideynləri ilə keçirilən sorğunun metodologiyası: sisoloji təhlil”** adlanan birinci paraqrafında tədqiqatda irəli sürülən əsas fərziyyəni - Valideynlərin sağlamlıq vəziyyəti, sosial statusları və şəxsiyyət keyfiyyətləri – sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin inkişafına mənfi təsir göstərir – tədqiqat keçirilmişdir. Tədqiqat 3 ay müddətində-pandemiyadan sonrakı dövrdə işlənilmişdir.

Dissertasiyanın sonuncu paraqrafı **“Sosiologiya və psixologiya ixtisasında təhsil alan tələbələrin fiziki və əqli imkanları məhdud**

---

[21] Azərbaycan Respublikası Təhsil Nazirliyi – Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla korreksiya işinin təşkili. Bakı: 2019.

**olan uşaq və yeniyetmələrlə mütəxəssis kimi hazırlığının, həmçinin cəmiyyətin bu şəxslərə münasibətinin sosioloji tədqiqat vasitəsilə öyrənilməsi”** adlanır. Problemlə bağlı tərəfimizdən anket sorğusu psixoloq və sosioloq tələbələr arasında keçirilmişdir. Sorğunun əsas aspektlərinə uşaq serebral iflici diaqnozundan əziyyət çəkən uşaq və yeniyetmələrə göstərilən xidmətin təşkili; həmin uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji iş tərəfindən necə aparılması; cəmiyyətə inteqrasiyası və reabilitasiyası zamanı müşahidə edilən çətinliklər aiddir.

Üçüncü fəslin ikinci paraqrafında keçirilən kütləvi tədqiqat 500 nəfərlik respondent arasında keçirilmişdir. Tədqiqatın əsas məqsədi cəmiyyətin bu qəbildən olan uşaq və yeniyetmələrə münasibəti, insanların maarif səviyyəsini müəyyən etməkdir.

Ümumi olaraq dissertasiya işində aparılan tədqiqatlar zamanı əldə edilən nəticələrdən belə qənaətə gəlmək olar ki, bir sıra amillər vardır ki, fiziki və əqli imkanları məhdud uşaqların yaşayışına və inkişafına mənfi təsir göstərir. Bunlardan getdikcə pisləşən ekoloji mühiti qeyd etmək lazımdır. Buna görədə müasir dövrdə anadangəlmə əlillik qazanan uşaqların sayı günü-gündən artır. Anadangəlmə əlil uşaqların doğulmasının səbəbi kimi süni qidalardan istifadə olunması, oturaq həyat tərzi, irsi xəstəliklərin fəsadları, yaxın qohumlar arasındakı nikahlar, əhalinin əksər hissəsinin şəhərlərdə məskunlaşması vəekoloji cəhətdən qeyri-sağlam mühitdə yaşaması və s. amillər də qeyd olunmalıdır. Tədqiqatın yekunlaşdırılmasından əldə edilən qənaətlər belədir:

-valideynlərin ailədaxili münasibətlər sistemi psixoloq və sosioloqların dəstəyi ilə tənzimlənərsə;

-Valideynlərin sosial müavinət ilə bağlı məlumatlılığı artırılarsa;

-Müəssisələrin quruluşu atipik inkişaf üçün uyğun olarsa;

-Valideynlərin maarif səviyyəsinin artırılması üçün mütəxəssislər cəlb olunarsa;

-Valideynlərin resuslarına əsasən fərdi inkişaf planı mütəxəssislərlə birgə qurularsa;

-Mütəxəssislərin işinin keyfiyyətinin yüksəldilməsi üçün valideynə icrası üçün rica etdiyi ev tapşırıqlarını icra edərsə;

-Valideynlərdən hər hansısa biri zərərli vərdişlərdən istifadə edir və bundan imtina edərsə;

-Uşaq serebral iflic diaqnozundan əziyyət çəkən uşaq və yeniyetmə üçün psixoloji sağlam mühit yaradılarsa;

-xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələrin cəmiyyətlə əlaqəsi sıx təmin olunarsa,

qeyd olunan hallarda kompleks formada işin təşkili təmin edilərsə, uşaq və yeniyetmələrin inkişafına ciddi təkan göstərər və həmin şəxsin reabilitasiya işi və cəmiyyətə inteqrasiyası uğurla icra olunar.

Dövlətin sosial siyasət sahəsində bu problemin həlli istiqamətlərini araşdırarkən, müəyyən etdik ki, ildən ilə bu sahədə xüsusi təyinatlı müəssisələrin sayı artır, onların texniki təchizatı və maddi şəraiti yaxşılaşır. Bununla belə, bir sıra problemlər vardır ki, onların həlli, sağlamlıq imkanları məhdud uşaqların və yeniyetmələrin sosial adaptasiyasına və onların ümumiyyətlə, gələcəyinə müsbət təsir göstərəcəkdir. Biz bu məsələləri tövsiyələr şəklində təqdim edirik:

1. Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin müalicəsi və sosial adaptasiya işinin düzgün qurulması onlar üçün sosial inteqrasiyanın səmərəli yollarından biridir. Bu zaman həm müalicə, həm də təhsil alan uşaqlar və yeniyetmələr adi həyat sürən digər insanların sırasına daxil olar, öz baza tələbatları və dəyərlərinin ödəmək imkanını əldə edə bilirlər.

2. Cəmiyyətdə baş verən sürətli dəyişikliklər, sosial sarsıntılar və fəlakətlər əhalinin ən zərif təbəqələrinə, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrə təsir edir, onları aciz və çarəsiz edir. Xüsusilə də, onlara dövlət tərəfindən göstərilən dəstək zəifləyəndə, ya da tam kəsiləndə vəziyyətləri çox ağırlaşır. Yaranan neqativ nəticələr aradan qaldırılmalıdır. İlk növbədə bu sahəyə dövlət dəstəyi gücləndirilməli, qayğıya ehtiacı olan qruplarla iş üsrə sosial siyasətin xüsusi istiqamətləri və formaları müəyyənləşməlidir.

3. Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin real, sağlam həyata qayıtması üçün görülən tədbirlər müxtəlif səviyyədə və formada olsa da, dünyanın əksər ölkələrində bu iş uğurla həyata keçirilir. Məqsəd ondan ibarətdir ki, əhalinin bu qrupu üçün

maksimum sosial, tibbi, psixoloji və hüquqi imkan və şərait yaradılmalıdır ki, onlar həyat fəaliyyətinin mümkün sahələrində sosial əlaqələrə qoşulsun, faydalı əməklə (imkan daxilində) məşğul olsun, sosial adaptasiyada uğurlar qazansın. Məlumdur ki, bu qrup adamların gözləntiləri reallıqla üst-üstə düşmədiyi üçün onlar öz tələbatlarının ödənilməsi sahəsində bir çox çətinliklərlə rastlaşırlar. Tövsiyyə olunur ki, ölkəmizdə qurum/komitə/təşkilat yaradılsın. Həmin şəbəkənin əsas funksiyalarından biri elm ocaqlarında inkluziv təhsil haqqında, həmçinin psixoloji yardım müəssisələri, reabilitasiya mərkəzlərinin işinin təşkili, yerləşmə yeri, xidmət göstərmə formaları haqqında ümumi məlumatı özündə cəmləsin. Müraciət edən valideyn və yaxud himayədar asanlıqla detallı məlumatı alıb, ona uyğun olaraq xidmət mərkəzlərinə üz tutsun. Həmin şəbəkənin fəalyyətinin KİV vasitəsilə yayılması təmin edilməsi tövsiyyə olunur.

4. Sağlamlıq imkanları məhdud uşaqlara və yeniyetmələrə sosial təcrübə qazanmaq şansı verilməlidir, bu şansın reallığı və əhatəsi bu sahədə çalışan mütəxəssislərin səylərinin birləşdirilməsi və uzlaşdırılmasını tələb edir. Bunun üçün xüsusi sosial proqramlar yaradılmalı, sosial adaptasiya ilə məşğul olan istisaslaşdırılmış mərkəzlər formalaşdırılmalı, hər bir şəxsin fərdiimkanları qiymətləndirilmli və fərdi proqram əsasında həyata keçirilməlidir. Proqramda əsas inkişaf istiqamətləri təyin olunmalıdır.

5. Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin sosial və sosial-psixoloji xüsusiyyətləri, onların sosial statusu və problemlərininkifayət qədər öyrənilməsinə baxmayaraq, Azərbaycan şəraitində onların sosial adaptasiyası və əsas amilləri və səmərəlilik barədə tədqiqatlar (beynəlxalq layihələr istisna olmaqla) hələ tam miqyasda aparılmayıb. Bu eyni zamanda sosial siyasətin tərkib hissəsi olan sosial adaptasiyanın idarəedilməsinə də aiddir. Azərbaycan reallıqlarını əks etdirən və ictimai tələblərə uyğun olan sosial adaptasiya modeli yenidən qurulmalı və həyata keçirilməlidir.

6. Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin diaqnostikası, reabilitasiyası və sosial adaptasiyasının real vəziyyətinin təhlili müasir tələblər baxımından həyata keçirilməli, xüsusi idarəetmə sistemi (modeli) imkanlarından istifadə olunaraq dövlət dəstəyi əsasinda reallaşmalıdır. Hər bir uşaq və hər bir ailə

üçün real adaptasiya meyarları üzərində qurulan idarəetmə prinsiplərindən istifadə olunmalıdır ki, bunlardan da ən vacib olanları sistemlilik və kompleksli yanaşmadır.

7. Problemlərinin həllində həm texniki vasitələr və qurğular, həm də insan amili əhəmiyyətli rol oynayır. Buna görə də idarəetmə sistemində (aidiyyatlı orqanlar başda olmaqla) bu sahələrə xüsusi önəm verilməlidir. Müasir elmi-texniki tərəqqi, sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin vəziyyətinin mümkün qədər yaxşılaşdırılmasına tam imkan verir.

8. Cəmiyyətdə şəraitə müvafiq olaraq bu qrup uşaqların uyğunlaşdırılması prosesində hər bir fərdin şəxsi keyfiyyətləri nəzərə alınmalı, peşə seçimi, işə düzəlmə imkanları ölçülməli, təhsil almaq imkanı, sağlamlığın bərpası, sosial-psixoloji durum, müxtəlif təsadüflər, sosial əlaqə imkanları da nəzərdən keçirilməlidir. Yaradılması tövsiyyə olunan şəbəkənin bir digər funksiyası könüllü dəstək olmaq istəyən şəxslər, bu sahədə çalışmağı planlayan mütəxəssislər, ixtisasartırma tələb edən, maarif səviyyəsini artırmaq istəyən şəxslər sağlamlıq imkanları məhdud insanlarla bağlı vakansiyalar, məlumatlar, tədbirlər haqqında məlumatı burdan əldə edə bilsinlər.

9. Sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin həm sağlamlığının bərpası və sosial adaptasiyası, həm də belə uşaqların prinsip etibarilə sayının azaldılması üçün xüsusi tədbirlər həyata keçirilməlidir. Keyfiyyətli həyat tərzi, yüksək sərvət meyilləri, motivasiya, özünüifadəetmə imkanlarının genişləndirilməsi üçün ailədə müsbət mənəvi-psixoloji iqlim yaradılmalı, maddi təminat yaxşılaşdırılmalı, ailədaxili münasibətlərin yüksək mədəni dəyərlər üzərində qurulması təmin edilməlidir. Burada idman və bədən tərbiyənin, bədii yaradıcılığın, ünsiyyətin, ev təsərrüfatının düzgün aparılmasının, təhsilin və s. rolu olduqca yüksəkdir. Xüsusi sosial əhatə lazımdır ki, insan öz həyatından məmnun qalsın, qrup, dostlar, tanışlarla ünsiyyət qura bilsin. Tədqiqat göstərdi ki, münaqişəli və yaxud natamam ailələr belə fürsətləri yarada bilməz və yaxud verə bilməz.

10.Sağlamlıq imkanları məhdud uşaqların və yeniyetmələrin sosial adaptasiya prosesinin optimallaşdırılması üçün idarəetmə

sistemi təkmilləşdirilməli, bu sahədə aparılan iş maddi və sosial parametrlər baxımından qurulmalı və təkmilləşdirilməlidir. Bunun üçün beynəlxalq təcrübədən də faydalanmaq lazımdır. Aidiyyatlı qurumlar – Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Neft Fondu və s. xətti ilə vahid üzunmüddətli dövlət proqramı işlənib hazırlanmalıdır ki, onun əsasında əhalinin bu risk qrupu ilə aparılan iş yüksək beynəlxalq standartlar səviyyəsində həyata keçirilsin.

11. Müxtəlif sahə mütəxəssisləri, elmi ictimaiyyət tərəfindən bu sahədəki vəziyyət yaxından öyrənilməli və tövsiyələr hazırlanmalıdır. Bunun üçün müvafiq qurumların iş planlarına sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmələrin problemlərinin təhlili və burada yaranan problemlərin həlli istiqamətləri üzrə tədqiqat mövzuları daxil edilməlidir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş, tədqiqatın fəsillərində əldə edilmiş elmi-nəzəri müddəalar ümumiləşdirilmiş, elmi yenilik məqamları, bir sıra təklif və tövsiyələr verilmişdir.

Dissertasiyanın **"Əlavə"** hissəsində aparılan tədqiqat sorğularının mətni təqdim olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**


1. Əlillərin cəmiyyətə inteqrasiyasında reabilitasiya tədbirlərinin rolu//17 aprel 2015/. Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları II hissə, s.65-67
2. Azərbaycanda uşaq və yeniyetmələrin sosial – demoqrafik və fiziki inkişafının dinamikası//"Sivilizasiya" – Elmi nəzəri jurnal, Bakı-2016/ Bakı Avrasiya Universiteti, s.16-21
3. Проблемы социальной помощи подросткам с ограниченными физическими возможностями в условиях обучения в интернате// Актуальні проблеми філософії та соціології, 2016, №12, s.43-46

4. Valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaq və yeniyetmələrin sağlamlığında olan problemlərin onların təlim tədrisinə təsiri// Elmi əsərlər, Bakı-Minsk /Slavyan Universiteti/,2016. № 1, s.205-212

5. Fiziki imkanları məhdud uşaqların sağlamlığının bərpası istiqmətində aparılan sosial siyasət// Bakı Qızlar Universiteti- Elmi əsərlər,2017. № 4, s.310-320

6. Технические средства в жизнедеятельности подростков с ограниченными возможностями как социальный критерий их защиты//«Габітус»,2021. № 26, s.15-19

7. Агрессия в отношении подростков с ограниченными возможностями здоровья// Alma mater,2021. № 10, s.58-64

8. Azərbaycanda sağlamlıq imkanları məhdud yeniyetmələrə göstərilən xidmət növləri və sahələri// Bakı Slavyan Universiteti, Elmi əsərlər,2021. № 2, s.23-30

9. Контактная малая группа как микросреда по развитию личности детей с ограниченными возможностями// Психология управления персоналом и экосистема наставничества в условиях изменения технологического уклада. Вторая международная научно-практическая конференция. Нижний Новгород, 11-12 ноября 2021 г. s.540-544

10. Sağlamlıq imkanları məhdud (lal-kar) validеynhimayəsindən məhrum olmuş uşaqlarla iş// Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları II hissə,2021. s.22-30

11. XIX-XX əsrdə Cənubi Qafqazda baş verən sosial-siyasi proseslərin humanitar və sosial tərəfləri elmi paradiqma kimi// Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransı, 2023.s.113-117

Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat 14:00 Bakı Dövlət Universitetində fəaliyyət göstərən BFD 4.25 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148. Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2025
Kağızın formatı: A5
Həcm: 46525
Tiraj: 100